Tarix və onun problemləri, №2 2010

**SEVİNC SEYİDOVA**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*tarix elmləri namizədi, dosent*

# I DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ ERMƏNİ DAŞNAKLARININ FƏALİYYƏTİ

I dünya müharibəsi ərəfəsində erməni daşnakları Türkiyə ərazisində və Qafqazda könüllü dəstələrin toplanması ilə məşğul olaraq I dünya müharibəsindən «bəhrələnmək» istəyirdilər. Ermənilər öz fəaliyyətini ilk növbədə Türkiyə ərazisində qurdular. «Qnçakın» üzvləri ilə əməkdaşlıq edən daşnaklar 15000 türkiyəli erməninin Rus ordusu tərəfində döyüşəcəyi haqqında Qafqaz komandanlığına söz verdi (2,s.47). «Daşnaksütyun» partiya şurasını çağıraraq Qərb və Şərq bürolarını təmsil edəcək səlahiyyətli şəxsləri təyin etdi. Şərq bürosunu Berlində yaşayan M.Muradyan və A.Aqoronyan, Qərb Bürosun, Varandyan, Erməni Bürosunu isə Cenevrədə yaşayan keçmiş türk parlamentinin deputatı Pasdırmacyan (Qaro) və terrorçu Xeço təmsil etdilər (1).İlk növbədə daşnaklar 1914-cü ildə Ərzurumda keçirilən qurultaylarında 1909-cu ildə «İttihad və Tərəqqi» partiyası ilə başladıqları sazişdən imtina etdilər. Sazişə görə, daşnaklar «Osmanlı vətəinin bütövlüyünün saxlanması naminə» ermənilərin «müstəqillik uğrunda mübarizəsinə son qoymalı idilər» (5,s.239). Türkiyənin müharibəyə daxil olmasından sonra isə daşnaklar dövlətə xəyanət etdilər (1914-cü il oktyabrın 31-i)(2,s.44).

Eçmiədzindəki erməni katolikosu 1914-cü il avqustun 5-də Qafqazın general-qubernatoru Vorontsov-Daşkova yazırdı ki, İstanbul patriarxlığından və erməni milli şurasından aldığı məlumata görə Osmanlı hökumətinin keçirəcəyi islahatların sağlam əsasları olmadığı üçün İmperatora mənim və bütün Rusiyadakı erməni dindarlarının, həmçinin Türkiyədəki ermənilərin ona sadiq olduğunu çatdırasınız və Türkiyə ermənilərini müdafiə etməsini xahiş edəsiniz. General-qubernator Vorontsov-Daşkov katalikosu ermənilərə kömək göstəriləcəyinə əmin edir və rus-türk müharibəsinin gedişində xaricdəki ermənilərin (yalnız Türkiyə erməniləri nəzərdə tutulur) ruslara kömək etməsini xahiş edirdi(2,s.45).Beləliklə, Osmanlı dövlətinin təbəəsi olan ermənilər Rusiya ilə müharibə vəziyyətində olan vətənlərinə xəyanət etdilər. Osmanlı milli məclisinin deputatı Qaro təxəllüslü Pasdırmacyan III ordunun erməni zabit və əsgərlərinin başında duraraq fərari kimi Rusiya tərəfinə keçdilər. Pasdırmacyanın quldur dəstəsi Osmanlı imperiyasının şəhər və kəndlərinin müsəlman əhalisini vəhşicəsinə qırmağa başladı. Ermənilər dövlət yaratmaq istədikləri əraziləri müsəlman əhalisindən bu yolla «təmizləyirdilər». Sonradan onlar dünya ictimaiyyəti qarşısında bu ərazilərin «erməni yurdu» olmasını sübut etməli idilər.1908-ci ilin konstitusiyasına görə Osmanlı imperiyasının bütün təbəələri ordu sıralarına çağrılmalı idilər. Məhz bu qanunun əsasında erməni əhalisinin nümayəndələri I dünya müharibəsi başlayanda orduya çağrıldılar. Lakin silah əldə edən erməni əsgərləri vətənin uğrunda döyüşməkdənsə, fərariliyə üstünlük verdilər. Bu məsələni tədqiq edən tarixçilərin bir çoxu - Rafael de Noqales, Kler Prays, Stenford Şoy, Feliks Veyli, K.Gürün, J.de Malevil, H.Onur, G.Ural ermənilərin ordudan fərarilik etməsini, quldur dəstələri yaradıb dinc müsəlman əhalisini qırdığını qeyd edirlər.1919-cu ildə Çalkaçyanın Parisdə nəşr edilmiş «Qırmızı kitab» adlı əsərində Türkiyə ermənilərinin xaricdən (Rusiyadan) göstəriş aldıqları təsdiq edilir(2,s.46).

1915-ci ilin əvvəlində ruslar manevr edərək, Ararat dağından keçib İran sərhəddinə enirlər. Bu vaxt ermənilər Vanda baş qaldırır və üsyan edirlər. 1915-ci ilin aprelində ingilis lordu Brissin Londondakı «Ermənistan dostları» cəmiyyəti «Erməni könüllülərini» silahlandırmaq üçün vəsait toplamağa başlayırlar (7,s.79).Rusların Brissə və ermə-

nilərə kömək etməsinə şübhə etməmək olar. Vanda üsyan başlamazdan əvvəl Türk Ordusunun sərhəd qoşunlarındakı kəşfiyyatçıları ermənilərin ruslarla əməkdaşlıq etdiyini xəbər verirdilər.1914-cü ildə Ərzurum qubernatoru 3-cü Ordunun komandanlığına rusların Şərqi Anadoluda üsyan hazırladıqlarını yazırdı. 1914-cü il oktyabrın 8-də Trabzonun qubernatoru Cəmal Əzmi bəy daxili işlər nazirliyinə teleqramında rusların 700 nəfər ermənilərindən ibarət dəstəni silahlandıraraq Artvinə göndərdiyini göstərirdi. 1914-cü il noyabrın 29-da Kazım bəy Vanda ermənilərin üsyana hazırlaşdığını xəbər verirdi. 1914-cü il noyabrın 30-da Van qubernatoru Gövdət bəy daxili işlər nazirliyinə vurduğu teleqramda ermənilərin Salmasda Andronik başda olmaqla üsyana hazırlaşdıqlarını yazırdı (4,s.125-128).Artıq 1915-ci ilin fevralında ermənilər Haqsef, Siranun, Muşda baş qaldırmışdılar. Fevralın 21-də Bitliçdə, Zeytunda üsyan başladı. Vanın qubernatoru martın 20-də Vanda 2000 üsyançının olduğunu qeyd edirdi. Aprelin 22-də Sivasın qubernatoru 30000 erməninin silahlandığını, 15000 nəfərinin rus oldusuna keçdiyini, yerdə qalanlarının isə Türk ordusuna arxadan hücum edəcəyini xəbər verirdi (6,s.62-73).

Stenford Şou erməni dəstələrinin aprelin 28-də Vana çatdıqlarını, mayın 14-də Vanın müsəlman əhalisinin kütləvi qırğınının başlanmasını və Vanın ruslara verilməsini göstərir. Mayın 17-də türk orduları Vanı tərk etdi. İyulun 22-də türklər Vanı qaytarır. Lakin avqustda ruslar buranı yenidən işğal edirlər. 1915-ci il mayın 18-də rus çarı Vanın erməni əhalisinə Rusiyaya sadiq olduqları üçün təşəkkürünü bildirdi. Erməni dəstələri Vanda Aram Manukyan və Vartan başda olmaqla erməni baş ştabını yaratdılar. Qaro Pasdırmacyan erməni ordusuna başçılıq edirdi. Aram Manukyan Vanın qubernatoru təyin edildi. Türkiyənin şərq rayonlarından yeni yaradılmış erməni dövlətinə erməni əhalisinin axını başladı. Van ərazisinə 250000 nəfər erməni toplandı. Lakin iyulda qısa müddətə olsa da türklər Vanı qaytardıqda, ermənilər kütləvi şəkildə qaçmağa başladılar. J.De Malevil 40000 nəfərin yolda öldüyünü qeyd edir. Hovanesyan 200000 erməninin Zaqafqaziya ərazisinə qaçdığını yazır (7,s.23).

Ermənilər gizli şəkildə planlaşdırılmış «erməni soyqırımından» danışırlar. S.Şou 1914-cü ildə Trabzon, Ərzurum, Ərzincan, Van, Bitlis əyalətlərində3300000 müsəlman əhalisinin yaşadığını, müharibədən sonra isə bu əhalinin 600000 qaçqına çevrilməsini göstərir(2,s.47).

Papazyan erməniləri öz bədbəxtliklərinin yaradıcısı adlandırır(2,s.47). Əsassız təbliğata uyan ermənilər 1915-ci ilin aprelində Türk hökumətinə qarşı üsyan qardırdılar və Türkiyə ordusu iki cəbhədə – ön və arxa cəbhələrdə düşmənə qarşı vuruşmağa məcbur olur. Belə bir şəraitdə hökumət mütləq tədbir görməli idi. Çünki müharibədə iştirak edən hər hansı bir dövlət daxilində öz təbəələrinin düşmən mövqeyinə laqeyd qala bilməzdi. Bu baxımdan Osmanlı hökuməti avrxa cəbhədəki düşmənləri ram etməli idi.

1915-ci il aprelin 24-də daxili işər nazirliyinin sərəncamı ilə İstanbul və digər böyük şəhərlərdə erməni təşkilatları dərhal bağlanmalı, təşkilatların başçıları isə həbs edilməli idilər. Bu səçrəncamın əsasında 2345 nəfər həbs edildi. Qamelin və Brunun verdiyi məlumata əsasən 600 nəfər erməni yazıçı, şair, jurnalist, siyasətçi, həkim, vəkil, hüquqşünas, müəllim, alim və ruhani həbs edildi. Lakin rəsmi Türk mənbələri 2345 nəfərin həbs edildiyini qeyd edirlər(2,s.47). Ermənilər aprelin 24-nü «soyqırım günü» elan ediblər. Bu gün hər il qeyd olunur, və 2000000 erməni əhalisinin qırıldığını bütün dünyaya car çəkirlər. Rəsmi sənədlər isə bunun əksini sübut edir.

1915-ci il aprelin 24-də Eçmiədzin katalikosu Gevork ABŞ-ın prezidentinə vurduğu teleqramda yazırdı: «Hörmətli prezident, Türkiyə-Ermənistanından alınmış son məlumatlara görə erməni xalqının mövcudluğu təhlükə altındadır... Sizdən türk fanatizminin qurbanı ola biləcək xalqımı müdafiə etməyi xahiş edirəm» (7,s.34).Katalikos

Gevorkun göndərdiyi teleqramdan göründüyü kimi, onun həbslərin keçirilməsi haqqında əvvəlcədən məlumatı var idi. Sərəncam usyanlarla bağlı verilmişdi. Üsyanlar isə davam edirdi. 1915-ci ildə Boğlıyanda, Maraşda, Urfanda, Antalyada, 1916-cı ildə İslahda, Tosyada, Ağdağmadendə ermənilər üsyanlar təşkil etdilər.

Ermənilərin köçürülməsi haqqında təklif ilk dəfə Ənfər paşanın daxili işlər naziri Tələt paşaya yazdığı məktubunda səslənmişdi. Ənvər paşa 1915-ci il mayın 2-də yazırdı: «Van gölü ətrafında yaşayan ermənilər döyüşə hazır vəziyyətdədirlər. Onlar üsyanı davam etdirəcəklər. Aldığım məlumata görə ruslar aprelin 20-də müsəlmanları sərhəddə Türkiyə ərazisinə (rus ordusu Vanı işğal etdiyi üçün, bu ərazi Rusiyanın hesab edilirdi) qoyublar. Cavab tədbiri kimi qarşıya qoyulmuş məqsədə çatmaq üçün ermənilərin ailələri ilə birgə rusların ərazisinə, yaxud Anadolunun müxtəlif rayonlarına köçürmək vacibdir. Müvafiq bildiyiniz tədbiri qəbul edin və həyata keçirdin» (7,s.36). Məktubdan göründüyü kimi Ənvər paşa ermənilərin köçürülməsi təklifini ruslardan götürmüşdür, yəni ruslar müsəlmanları köçürdüyü üçün, o, cavab tədbirləri görmək istəyirdi. Ermənilər Şərqi Anadolu rayonlarında üsyan qaldırdıqları üçün onları Anadoludan ölkənin digər rayonlarına köçürmək üçün ikinci təklif kimi irəli sürülmüşdü. Erməni üsyanları başladıqdan sonra, ölkənin baş komandanlığı hissələrə aşağıdakı məzmunda əmr (1915, 25 fevral) göndərmişdi: «Ermənilərdən hərbi hissələrin ştablarında, dəftərxanada, jandarm xidmətində istifadə etmək qadağan edilir, silahlı müqavimətlə rastlaşan komandirlərə atəş açmaq, hərbi vəziyyət elan etmək icazəsi verilir. Lakin, hərbiçilərə erməni əhalisinin mənafeyinə toxunan, tədbirlərə əl atmaq, onları təqib etmək qadağan edilir» (4,s.125-138).

1915-ci il mayın 18-də daxili işlər nazirinin Ərzurum qubernatoruna göndərdiyi şifrli teleqramda Ərzurumdan köçürülən ermənilərin Urfa və Mosulun cənub rayonlarında yerləşdirilməsindən bəhs edilirdi. Mayın 23-də Vana, Bitlisə də bu məzmunda şifrli teleqramlar göndərilmişdi(2,s.47).Urfa, Zor qubernatorlarına buraya gələn ermənilərin qəsəbələrdə yerləşdirilməsi, onların əmlak və əşyalarının qorunması barədə göstərişlər verilmişdi. Lakin erməni məskənlərinin Bağdad dəmir yolundan ən azı 25 km aralıda salınmasına icazə verilirdi. Mayın 26-da Baş komandanlıq daxili işlər nazirliyinə xəbər verirdi: «Ermənilərin Şərqi Anadolu vilayətləri, Zeytundan digər yaşayış yerlərinə, Diyarbəkirin cənubuna, Fərat vadisinə, Urfa və Süleymaniyyəyə köçürülməsi haqqında şifahi razılıq alınmışdır. Yeni qiyam mörkəzlərinin qarşısını almaq üçün aşağıdakı qaydalara əmələ etmək lazımdır:

a) Yeni yaşayış məskənlərində erməni əhalisinin sayı yerli müsəlman əhalisinin 10%-dən çoxunu təşkil etməməlidir; b) Erməni qəsəbələrində evlərin sayı 50-dən çox olmamalıdır; v) Erməni köçkünləri öz evlərini digər ryonlara dəyişə bilməzlər» (4,s.125-138).

Həmin gün daxili işlər nazirliyi hökumətə erməni əhalisinin köçürülməsi barədə məlumat verdi.

Mayın 27-də dövlət əleyhinə fəaliyyət göstərənlər üçün cəza nəzərdə tutan qəbul edildi. Bu qanuna görə hökumətə tabe olmayan şəxslərə qarşı ən kəskin ölçüəlr qəbul edilə bilərdi. Yalnız vətən xainləri, düşmənə kömək edən əhali köçürülə bilərdi. Nəhayət, mayın 30-da erməni əhalisinin köçürülməsi, və köçürülmə müddətini nəzərdə tutan qanun qəbul edildi (köçürülmə-türk mənbələrində təhçir kimi işlədilir. Təhçir-deportasiya (sürgün) demək deyildir). Ermənilərin köçürülməsinə rəsmi icazə 27 may və 30 may tarixində verilmişdi. Lakin bəzi rayonlardan onları artıq mayın 15-dən köçürməyə başladılar. Ermənilərin təhlükəsizliyinin tam təmin olunması üçün hökumət xüsusi göstəriş hazırlamışdı (1915-ci il iyun). Bu göstərişə görə köçkünlərin düşərgəsinə hücum edən şəxsləri, yaxud onlardan rüşvət alanları hərbi tribunal mühakimə edirdi. 1915-ci

il sentyabrın 26-da əmlak məsələlərinə aid olan qanun qəbul edildi (4,s.125-138). Bu qanuna görə ermənilərin yerlərdə qoyub gəldikləri daşınmaz əmlak satılarkən pul onların hesabına banka təhvil verilirdi.Beləliklə, Türk hökumətini ermənilərin məcburi sürgünündə günahlandırmaq olmaz. Ternon türklərin erməniləri köçürülməsini gizli plan əsasında təşkil etdikləri haqqında rəsmi məlumatların olmadığını yazır(2,s.50). Yuxarıda misal gətirilən faktlardan göründüyü kimi, türklərin heç bir gizli planı yox idi və köçürülmə dövlət tərəfindən açıq şəkildə rəsmiləşdirilmişdi. Qanunların hamısı dövrü mətbuatda nəşr edilmişdi. 1915-ci ilin iyununda qəbul edilmiş qanuna əsasən «ermənilərin toxunulmazlığı» maddəsini pozan şəxslər hərbi tribunalda mühakimə edilirdilər. Qanunun icrası ilə əlaqədar 1397 nəfər müxtəlif cəzalara, o cümlədən ölüm cəzasına məhkum edilmişdi(2,s.50).

«İttihad və Tərəqqi» partiyasının 1916-cı il noyabrın 1-də keçirildiyi son konqresində Tələt paşa köçürülmə zamanı səhvlərə yol verildiyini qeyd edir. Lakin o, hökumətin erməni əhalisinin soyqırımı ilə bağlı heç bir göstəriş vermədiyini göstərir və xarici ölkələrin məsəlini həddən artıq şişirtdiyini deyirdi.1916-cı il dekabrın 7-də daxili işlər nazirliyi 702900 nəfərin 1915-ci ildə köçürülməsinə 25 milyon quruş xərcləndiyini və 1916-cı il üçün 150 milyon quruş nəzərdə tutulduğunu xəbər verirdi.

1915-ci il iyunun 14-də hökumətin şifrələnmiş məlumatında Ərzurumda köçkünlərdən 500 nəfər erməninin Ərzincan və Ərzurum arasında yaşayan tayfalar tərəfindən öldürüldüyünü və belə halların aradan götürülməsi üçün cinayətkarların ağır cəzalanması nəzərdə tutulurdu.1915-ci il iyunun 26-da Tələt paşa Ələzizdən gedən erməni köçkünlərinin üzərinə Dersim quldurları tərəfindən basqın edildiyini və ermənilərin təhlükəsizliyini təmin etmək üçün bütün tədbirlərin görülməsini tələb edirdi. Faktlardın göründüyü kimi Türk hökumətinin soyqırımda günahlandırılması əsassızdır.

Rəsmi türk mənbələri 1915-ci ildə ermənilərin köçürülməsi zamanı 300000 erməni əhalisinin ölümü barəsində məlumat verir (5,s.239).

I dünya müharibəsində döyüşlərdə 550-600 min türk əsgəri öldürülmüş, 2 milyon nəfər isə xəstəlik, aclıq və erməni quldurlarının basqınları nəticəsində həlak olmuşdu (5,s.239).«Erməni məsələsi» barədə yalan məlumat verən qərb mənbələri A.Toynbinin «Mavi kitabı», Ternonun «Cinayətkar sükut» əsəri Lepsiusun «Türkiyədə erməni xalqının vəziyyəti barədə hesabatı» - erməni tələfatı haqqanda müxtəlif məlumat vermişlər. A.Toynbi 600000 nəfər erməni əhalisinin öldüyünü göstərir. A.Toynbi onun əsərinin yalnız təbliğat xarakteri daşıdığını yazmışdır. Doktor İ.Lepsius ermənilərin vəziyyətini İstanbuldakı xarici ölkələrin səfirliklərindən və patriarxlıqdan öyrənmiş, Şərqi Anadoludakı hadisələrdən yazmışdır(2,s.51).

Beləliklə, ingilis, fransız və ruslar tərəfindən qızışdırılan ermənilərin Osmanlı imperiyasının əraziləri hesabına dövlət qurmaq arzuları puça çıxdı. 1915-ci il hadisələrini ermənilər «Soyqırım» - «genosid» adlandırırdılar. Bu sözün mənası şüurlu şəkildə bir millətin digər milləti qurmasıdır. Türk xalqı şüurlu şəkildə ermənilərin qırğınını törətməmişdir.

1909-cu ildə hakimiyyətə gələn «İttihad və Tərəqqi» partiyasının başçıları ilk dəfə olaraq erməni deputatları – Vramyan, Papazyan və Kaçaznunini parlamentə dəvət etmişlər (hər 3 deputat 1915-ci il erməni qiyamına başçılıq etmişdir).Osmanlı imperiyasında müxtəlif dini icmalar azad mövcud olmuşlar. Qeyri müsəlmanların verdikləri xüsusi cizyə vergisi onları hərbi xidmətindən azad etmişdir. Türklər heç vaxt «nifrət» etməmişlər. 1923-cü ildə «Daşnak» partiyasının Buxarestdə keçirilən qurultayında Kaçaznini demişdir: «1914-cü ilin payızın əvvəllərində Türkiyə hələ müharibəyə girməzdən əvvəl Qafqazda erməni inqilabı qrupları formalaşmağa başladı. Ərzurumda qəbul edilən qərarın əksinə olaraq, Daşnak partiyası bu işdə Türkiyə əleyhinə fəal mövqe tut-

du...Bu gün həmin könüllü qrupların nə dərəcədə düzgün hərəkət etdiklərini müzakirə etməyin mənası yoxdur. Tarixi hadisələrin özünün təkzibedilməz məntiqi vardır. Erməni könüllüləri türklərə qarşı döyüşmək qabiliyyətinə malik deyildilər...Biz öz beynimizdə xülya dolu bir aləm yaratmışıq. Biz özgələrini öz arzularımıza tabe etmək istəyirdik; biz reallıq hissini itirmişdik və arzularımıza bizi aparmağa icazə vermişdik» (7,s.86). Erməni qiyamının liderlərindən biri olan Kaçaznuninin gec də olsa səhvlərini etiraf etməsi, müasir dövrdə ermənilərin həyasız tələblərinə verilən cavabdır. Çox təəssüf ki, müasir erməni təbliğatçıları bu faktı gizlətməyə çalışırlar. Türklər heç vaxt öz ərazisində yaşayan başqa millətlərə,o cümlədən də ermənilərə nifrət etməmişlər. Yuxarıda göstərilən faktlardan türklərin nəinki ermənilər, həmçinin Osmanlı imperiyasında yaşayan digər xalqlarla dinc yanaşı yaşaması, əməkdaşlıq etməsinin şahidi oluruq. Yarandığı ilk gündən Osmanlı imperiyası bu prinsipə əməl etmişdir.

I dünya müharibəsindən əvvəl Anadolu ərazisinin Rusiya, Fransa və İngiltərə arasında bölünməsi bir neçə dəfə müzakirə edilmişdi. Ermənilərin Anadolunun Şərq vilayətlərindən köçürülməsindən əvvəl Rusiya məhz bu ərazilərə və Kilikiyaya sahib olmaq istəyirdi. Rus çarı II Nikolay bu barədə deyirdi: «Mən onları (erməniləri) türk əsarətində qoya bilmərəm... Ermənistanın Rusiyaya birləşdirilməsi yalnız onların öz arzusu ilə ola bilər, əsk halda mən onlara muxtariyyət verəcəyəm» (5,s.279).1915-ci il martın 15-də çar II Nikolay Kilikiyanın Fransaya verilməsinə razılıq verdi. Rus qoşunları Ərzurumu işğal etdikdən sonra, ermənilərin Ərzurumda yaşaması qadağan edildi. Çar Rusiyada «yakut məsələsi» olmadığı kimi «erməni məsələsi» nin də olmadığını qeyd etdi (5,s.279).

Osmanlı imperiyasının bölünməsi ingilis-rus (mart 1915-ci il), ingilis-fransız (3 yanvar 1916-cı il), fransız-rus (26 aperl 1916-cı il) və ingilis-rus (may 1916-cı il) danışıqlarında müzakirə edilmişdi(2,s.53).Ermənistan adlandırılan torpaqlar Fransa ilə Rusiya arasında bölündü. Türkiyənin bölüşdürülməsi ilə bağlı danışıqlar Fransanın Beyrutdakı konsulu Corc Piko, İngiltərənin Şərq üzrə eksperti Mark Sayks və Rusiyanın xarici işlər naziri Sazonov tərəfindən aparıldığından bu müqavilə Sayks-Piko müqaviləsi adlandırırdı.Birinci görüşdə (1915-ci il 12 mart) İstanbulun və Qara dəniz boğazlarının Rusiyaya verilməsi müzakirə edildi. 1916-cı il yanvarın 3-də fransızlar və ingilislər İngiltərənin İraqın cərubundakı əraziləri, o cümlədən Bağdad, Bəsrəni, Fransanın isə Beyrut və Suriyanın alacağı, həmçinin iki dövlətin Fransa və İngiltərə protektoratlığı altında Məkkə əmiri başda olmaqla Ərəb dövlətləri yaratmaq məsələsini müzakirə etdilər.1916-cı il aprelin 26-da Fransa və Rusiya Ərzurum, Trabzon, Van, Bitls, Muş, Siirt, Qaysəri, Zar və Harput və s. ərazilərinin bölünməsi barədə razılığa gəldidər. İtaliya «Antanta» ittifaqına birləşdikdən sonra, ona Antalya ərazisi təklif edildi. Lakin İtaliya Aydın vilayətini də tələb etdi. Rusiya bu təkliflə razılaşmadı, sonralar Aydın vilayətinin Yunansıtana verilməsi qərarına gəldilər. Beləliklə, Osmanlı imperiyasının ərazisi əvvəlcədən bölüşdürüldü. Lakin bu görüşlərin heç birində Ermənistan dövləti haqqında danışıqlar aparılmadı.

1917-ci ilin fevralında Rusiyada baş verən inqilab çar rejiminin süqutuna gətirib çıxartdı. Oktyabrda hakimiyyət bolşeviklərin əlinə keçdi. Noyabrın 22-də Rusiya Türkiyəyə barışıq təklif etdi. Rus-türk danışıqları dekabrın 4-də Ərzurumda başladı. Dekabrın 18-də hər iki tərəf atəşi dayandırdı. Dekabrın 20-də Brest-Litovskdə sülh danışıqları başladı. Bu danışıqlarda Osmanlı dövlətini xarici işlər naziri Əhməd Nəsimi bəy təmsil edirdi. 1918-ci ilin yanvarından türk nümayəndəliyinə Tələt paşa başçılıq etdi.

1918-ci il yanvarın 13-də «Pravda» qəzetində V.İ.Leninin və İ.V.Stalinin imzası ilə çıxan 13№-li dekretdə deyilirdi: «Fəhlə-kəndli hökuməti istər Rusiya, istərsə də Türkiyədə yaşayan ermənilərin müstəqil dövlət yaradılana qədər mlli müqəddəratlarını müs-

təqil həll etmək hüququnu tanıyır.» (5,s.282) Bu dekret rus ordu hissələrinin Türkiyə sərhədlərindən geriyə çəkilməsi, erməni əhalisinin qorunmsı məqsədilə erməni milisinin yaranması, ermənilərin əvvəlki yaşayış yerlərinə qaytarılması, demokratik yolla seçilmiş müvəqqəti erməni hökumətinin yaradılması və bu hökumətin vəzifələrinin sülh danışıqlarında müəyyən edilməsini nəzərdə tuturdu. Bu tədbirlərin həyata keçirilməsinə Rusiya tərəfindən Qafqaz işləri üzrə komissar S.Şaumyan kömək göstərməli idi. Həmçinin erməni torpaqlarından xarici qoşunların çıxarılmasına nəzarət edən birgə komissiya yaranmalı idi. Ruslar erməniləri silahlandırdıqdan sonra Osmanlı imperiyasından çıxmaq fikrində idilər. Brest-Litovsk danışıqları 1918-ci ilin martın 3-də sülh müqaviləsi ilə başa çatdı. Bolşeviklər nəyin bahasına olursa olsun, hakimiyyəti əldə saxlamaq üçün sülh müqaviləsini imzalamalı idilər. Buna görə də Rusiya ağırlığından asılı olmayaraq bütün güzəştlərə hazır idi. Rusiya Şərqi Anadolu, o cümlədən Ərdəhan, Qars, Bitlisin azad edilib Türkiyəyə verilməsinə çalışırdı.Ümumi müqaviləyə 11 maddədən ibarət olan rus-türk müqaviləsi ayrıca daxil edilmişdi. Rus-türk müqaviləsinin maddələrinə görə Şərqi Anadolu 6-8 həftə ərzində azad edilməli, xüsusi birgə komissiya Rusiya ilə Türkiyə arasında sərhədləri müəyyən etməli idi. Sərhəd 1877-1878-ci illər rus-türk müharbəsinə qədər olan vəziyyətinə görə təyin edilməli idi. Brest-Litovsk sülh müqaviləsi imzalandığı dövrdə Qafqazda vəziyyət mürəkkəb idi.

Zaqafqaziyada 1918-ci ilin fevralında Zaqafqaziya Federasiyası yaradılmışdı. Türk Şərq cəbhəsinin komandanlığı Zaqafqaziya Federasiyasının nümayəndələrini görüşə dəvət edərək mehriban qonşuluq münasibətlərinin bərqərar olmasını onlara təklif etdi. Ruslar sərhəddən çəkilərək öz mövqelərini ermənilərə verirdilər. Brest sülh müqaviləsinin imzalanması ərəfəsində Türkiyə qoşunları hücuma keçərək, 1918-ci ilin fevralın 13-də Ərzincanı, fevralın 21-də Trabzonu azad etdlər. Martın 8-də Qafqaz nümayəndəliyi Trabzona gəldi. Bundan sonra martın 12-də Ərzurum, aprelin 5-də Sarıqamış, aprelin 7-də Van, aprelin 14-də Batum, aprelin 25-də Qars azad edildi. Azad edilmiş ərazilərdə rusların mövqeyini tutan erməni daşnakları 1918-1919-cu illərdə Andronik, Amazasp, Torq, Canpolodyan, Q.Qaracyan başqa olmaqla Zaqafqaziya ərazisində yerli əhalini vəhşicəsinə qırırdılar. Ermənilər Brest-Litovsk sülh müqaviləsinin tanımaqdan boyun qaçırdılar. Qarsı türk orduları azad etdikdən sonra Zaqafqaziya Seymi Trabzonda başlanmış danışıqları davam etdirmək qərarına gəldi.1918-ci il mayın 11-də Batum konfransı işə başladı. Xəlil paşa Ahalkələki, Gümrü ərazilərinin Qars-Gümrü-Culfa dəmir yolunun Türkiyəyə verilməsini tələb etdi. Mayın 15-də türk qoşunları Qarakilsə yaxınlığında erməniləri əzərək Gümrünü aldılar. Bakıdan ermənilərin köməyinə gələn daşnak-bolşeviklər Gümrü, Qarakilsə ərazisində yaşayan Azərbaycan kəndlərini dağıdaraq, əhalini vəhşicəsinə qırdılar. Vəziyyətin gərginliyini görən Zaqafqaziya Federasiyasına daxil olan dövlətlər ayrılaraq, öz müstəqilliklərini elan etdilər (mayın 26-da Gürcüstan, mayın 28-də Azərbaycan və Ermənistan Respublikaları yarandı). Ermənistan Respublikasının mayın 28-də elan edilməsinə baxmayaraq onun nə ərazisi, nə də paytaxtı var idi. Bir gün sonra mayın 29-da Azərbaycan Demokratik Respublikası İrəvan şəhəri və İrəvan qəzasını (400 min əhali) Ermənistan Respublikasına verdi. 400 minlik əhalinin içərisində müsəlmanlar (azərbaycanlılar, kürdlər və s.) üstünlük təşkil edirdilər. Bu hadisəyə, tədqiqatçıların münasibəti birmənalı deyildir. B.Nəcəfov yeni yaradılmış Azərbaycan Demokratik Respublikasının öz ərazisini qorumaq üçün kifayət qədər qüvvəsi olmadığını, ermənilərin hərbi, bandalarının İrəvan qəzası, o cümlədən Üçmüədzin ərazisini nəzarətdə saxladığını, həmçinin bu addımın məcburi xarakter daşıdığını göstərir (8,s.94-95). S.Uimz Azərbaycanın əməkdaşlıq və sülh istiqamətində iş apardığını, Ermənistanın isə bu vaxt öz çırtdan ölkəsi üçün terror yolu ilə daha çox torpaq qamarlamaq istiqamətində vurnuxduğunu göstərir (3,s.363). Fikrimizcə, hər iki

müəllif haqlıdır. Lakin, təəssüf ki, ADR rəhbərlərinin bu güzəşti erməniləri sakitləşdirmədi. Əksinə onlar yeni torpaq iddiaları irəli sürürdülər ki, bu iddialar müasir dövrümüzə qədər səngimir və Azərbaycan xalqının ən böyük bəlasına çevrilmişdir. İyunun 4-də Türkiyə Ermənistan, Azərbaycan və Gürcüstanla sülh müqaviləsi imzaladı. Sentyabrın 14-də türk qoşunları Bakıya daxil olarkən erməni daşnakları şəhəri tərk etdilər. Ermənilər türk ordusuna heç bir müqavimət göstərmədən qaçdılar.

Yalnız Bakıda rəsmi məlumata görə daşnaklar 14.000 dinc sakini vəhşicəsinə öldürmüşlər (6,s.81). C.Makkarti münaqişənin sonuna yaxın təkcə İrəvan quberniyasında 180 min müsəlmanın öldürüldüyü və qaçqın olduğunu yazır. Azərbaycan ərazisində isə 60 min qaçqın 420 kəndin isə tamamilə məhv edildiyini qeyd edir (6,s.81).

Batumda Türkiyə Zaqafqaziya dövlətlərinə öz müttəfiqləri olan Almaniya, Avstriya və Bolqarıstan ilə sülh müqaviləsi imzalamağa kömək etməyə söz verdi. Bu məqsədlə Qafqaz dövlətlərinin nümayəndələri Türkiyəyə, İstanbula gəldilər. Erməniləri - Aqorayan və Xatusyanı Sultan Vəhdəddin qəbul etdi. Ermənilər bu qəbuldan razı qaldılar. Tələt paşa Qafqazdakı vəziyyəti müzakirə etmək üçün Berlinə yola düşdü. Lakin 1918-ci il oktyabrın 8-də «Vilsonun sülh prinsipləri» nə müvafiq olaraq, Tələt paşanın hökuməti istefa verdi. Oktyabrın 14-də Əhməd İzzət paşa yeni hökuməti yaratdı. 1918-ci il oktyabrın 27-də Mudrosda sülh danışıqları başlandı.Oktyabrın 30-da sülh müqaviləsi imzalandı. Bu müqavilə türk qoşunlarının İranın şimal-şərqinə çəkilməyini və Zaqafqaziyanı tərk etmələrini nəzərdə tuturdu(2,s.57).Bu dövrdə ermənilər Türkiyə ərazisində öz dövlətlərini yarada bilmədilər, lakin «Böyuk Ermənistan» arzusu onları rahat buraxmadı. Azərbaycan ərazisində öz dövlətlərini yaratmaq niyyəti ilə erməni daşnakları yeni cinayətlər törətməyə başladılar.

### ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f.62,siyahı 1,iş 32,vv.3- 4.
2.Seyidova S.M.,Ramazan U.Osmanlı imperiyasında milli münasibətlər - erməni məsələsi (XIX əsrin II yarısıXX əsrin I rübü).Dərs vəsaiti. Bakı: Adiloğlu nəşriyyatı,2002,80s.
3.Üimz S.A. Ermənistan – terrorçu «xristian» ölkənin gizlinləri (Ermənilərin böyük fırıldaq seriyaları). I cild. Bakı: Ofset Az. - Türk Poliqrafiya şirkəti, 2004, 386 s.
4. Hudavendigar Onur. Ermeniler. İstanbul: Kitab Evi, 1999, 280 s.
5. Кямуран Гюрюн. Армянское досье. Баку: Язычы, 1993, 372 с.
6. Маккарти Дж. Маккарти К. Тюрки и армяне. Руководство по армянскому вопросу. Баку: Азерб.государственное издательство, 1996, 134 с.
7. Малевил Ж. Армянская трагедия 1915 года. Баку: Элм, 1990, 128 с.
8. Наджафов Бахтияр. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – начале XX века. ч.2, Баку: Шарг-Гарб 1994, 335 с.

**СЕИДОВА С.**

**ДЕЯТЕЛЬНОСТЬ АРМЯНСКИХ ДАШНАКОВ В ГОДЫ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ**

В статье на основе исторических фактов анализируется преступная деятельность армянских дашнаков в период первой мировой войны. Рассматриваются действия дашнаков, которые с целью создания своего государство на территории Турции поднимают восстание и начинают войну против нее, а также расскрывается суть лживой армянской пропоганды об «армянском геноциде».

**SEYIDOVA S.**

**THE ACTIVITY ARMENIAN DASHNAKS DURING THE FIRST WORLD WAR**

In the article on the basis of the historical facts is analyzed the activity of armenian dashnaks during the first world war. The actions dashnaks are considered which with the purpose of creation the state in territory of Turkey rebel and begin war against its, and also expose essence of false Armenian propaganda about " Armenian genocide ".

***Rəyçilər: t.e.d.O.B.Sultanov, t.e.d.A.M.Məmmədov.***

***Türk və Şərqi Avropa xalqlarının tarixi və tarixin tədrisi metodikası kafedrasının 14 aprel 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №13).***